# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

# ƏMR

№ 15

**Bakı şəhəri** “1” fevral 2018 il

**“Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Energetika Nazirliyinin 2017-ci il 10 noyabr tarixli 38 nömrəli əmrində dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə Energetika Nazirliyinin Dövlət Enerji Nəzarəti və Dövlət Qaz Nəzarəti idarələrinin ləğv edilməsi və Azərbaycan Respublikası Energetika Nazirliyinin 2018-ci il 10 yanvar tarixli 03 nömrəli əmri ilə Nazirliyin aparatının yeni strukturunun və ştat cədvəlinin təsdiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** “Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Energetika Nazirliyinin 2017-ci il 10 noyabr tarixli 38 nömrəli əmrinin 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** İşçi Qrupunun sədri hissəsində “Gülməmməd Cavadov - Azərbaycan Respublikası energetika nazirinin müavini” sözləri “Samir Vəliyev - Azərbaycan Respublikası energetika nazirinin müavini” sözləri ilə əvəz edilsin;

**1.2.** İşçi Qrupunun sədr müavinləri hissəsində “Rafiq Əliyev - Azərbaycan Respublikası Energetika Nazirliyinin iqtisadiyyat, elm və innovasiya şöbəsinin müdiri, Fazil Nağıyev - Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrasına nəzarət şöbəsinin müdiri” sözləri “Xalidə Məsimova - Azərbaycan Respublikası Energetika Nazirliyinin Strateji proqramlar və islahatlar şöbəsinin müdiri” sözləri ilə əvəz edilsin;

**1.3.** İşçi Qrupunun üzvləri hissəsində “Enerji siyasəti və yanacaq-enerji resursları” sözləri “Neft-qaz siyasəti” sözləri ilə, “Elektroenergetika” sözü “Energetika”

sözü ilə, “Xalidə Məsimova - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdiri” sözləri “Ələsgər Həsənov - Enerji səmərəliliyi və ekologiya şöbəsinin müdir müavini” sözləri ilə, “Hüquqi münasibətlər” sözləri “Hüquq” sözü ilə əvəz edilsin və “Cəfər Hüseynov- “Dövlət Enerji Nəzarəti” İdarəsinin rəisi” və “Hacıqulu Sadıqov - “Dövlət Qaz Nəzarəti” İdarəsinin rəisi” sözləri çıxarılsın.

**2.** İctimaiyyətlə əlaqələr və informasiya texnologiyaları şöbəsi bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Ümumi şöbə (E. Rzayeva) bu əmrin surətini işçi qrupun üzvlərinə çatdırılmasını təmin etsin.

**4.** Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**